VƏTƏNDAŞ HƏMRƏYLİYİ

№ 19 (234) 17 - 24 mart 2004-cü il İctimai-siyasi qəzet Qiyməti 1000 manat

# Bu bayram millətin öz tarixi kökünə sədaqətin nümunəsidir

## Sabir Rüstəmxanlı axır çərşənbə münasibətilə Azərbaycan xalqını təbrik etdi



VHP sədri, millət vəkilinin xalqımıza ünvanlanmış təbrikində deyilir: **"Min illərin bağrından qopub gələn bu bayram xalqımızın öz milli adət-ənənəsinə, tarixi kökünə sədaqətinin nümunəsidir. Axır çərşənbə oyanış, dirçəliş, təbiət kimi insanın ruhunun təzələnməsi deməkdir. Ən qədim dövrlərdən başlayaraq Şərq təqvimi üzrə illərin yeniləşdiyi bu günlərdə mərdlik, cəsarət, igidlik tələb edən oyunlar keçirilər, millətin ruhuna yaz havası ilə birlikdə cəngavərlik, ərənlik duyğusu aşılanardı. Bu mənada əslində axır çərşənbə millətin qan yaddaşının, vətən duyğusunun bayramıdır. Mən bu bayram münasibətilə bütün Azərbaycan xalqını təbrik edir, ona xöşbəxtlik arzulayıram! Bu bayramı çadırlarda, müvəqqəti yaşayış məskənlərində keçirən insanlarımızın hər birini bağrıma basıb, əmin edirəm ki, onlar gec-tez bu bayramı öz doğma yurd-yuvalarında, ata-baba ocaqlarında keçirəcəklər. Allah hər birimizi qorusun!"**